QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

**Kollec diplomu ilə imtahansız hansı universitetlərə qəbul olmaq olar?**



6

# Azərbaycan-Slovakiya: tərəfdaşlıqda yeni səhifə



2

*Prezident İlham Əliyev: "Bu gün Azərbaycan-Slovakiya siyasi əlaqələri çox yüksək səviyyədədir"*

№ 054 (7464)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 iyul 2026-cı il.
Qiyməti 1 manat

# Rusiyaya qarşı "Cəhənnəm sanksiyaları"



4

**Dünya mediası Şuşadan səslənən mesajları təhlil edir**



5

**İctimai nəqliyyatda davranış mədəniyyəti: Problem təkcə avtobus deyil...**



8

**Çimərlik geyiminə görə qınaq: şəxsi seçimə niyə cəmiyyət qərar verməlidir?**



7

## Oxumaq dövrü bitdimi?



8

## Uşaqlar, texnologiya və təhlükə: ekspertlərin fikri toqquşur



7

# Azərbaycan-Slovakiya: tərəfdaşlıqda yeni səhifə

## Prezident İlham Əliyev: “Bu gün Azərbaycan-Slovakiya siyasi əlaqələri çox yüksək səviyyədədir”



***Azərbaycan-Slovakiya əlaqələrində yeni səhifə açılır. Qarşılıqlı səfərlər çərçivəsində müzakirə olunan məsələlər, imzalanan sənədlər bu əlaqələrin yüksələn xətlə inkişafında öz sözünü deyir.***

Bu baxımdan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinin ölkəmizə səfəri xüsusilə diqqət çəkir. Səfər çərçivəsində Prezident İlham Əliyevin və Peter Pelleqri ilə tətbətək və geniş tərkibdə görüşləri, mətbuata birgə bəyanatları iki ölkə arasında münasibətlərin dünəni, bugünü və gələcəyi barədə aydın təsəvvür yaradır. İyulun 14-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək, fəal dialoqu davam etdirdiklərini bildirib: “Sizi Administrasiyanızın və Hökumətinizin mühüm üzvlərindən ibarət çox böyük nümayəndə heyəti müşayiət edir. Biz də böyük heyətimizlə buradayıq. Bu, işin və ikitərəfli gündəliyin miqyasını, həmçinin irəliləyişi gördüyümüz və əlavə irəliləyişi görmək istədiyimiz həmin istiqamətləri nümayiş etdirir. Elə indicə bir çox məsələlərlə bağlı təkbətək fikir mübadiləsi apardıq, indi isə nümayəndə heyətləri ilə davam edirik. Tam əminəm ki, bu səfər tərəfdaşlığımıza əlavə təkan verəcək.”





### “DİNAMİK ƏLAQƏLƏRİN İNKİŞAFI İKİ TƏRƏFİN NİYYƏTİNİ GÖSTƏRİR”

Qeyd edək ki, Azərbaycanda Slovakiya şirkətləri fəaliyyət göstərir və bu şirkətlər Azərbaycanda yol tikintisi, müxtəlif layihələrin həyata keçirilməsi ilə məşğuldurlar. Slovakiya Azərbaycanla enerji, kənd təsərrüfatı, elektrik stansiyaları, ətraf mühitin qorunması və inşaat sahəsində əməkdaşlıq etməkdə daha çox maraqlıdır. Azərbaycan Respublikası Milli Məclisində 13 dekabr 2005-ci ildən etibarən Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Azərbaycan–Slovakiya münasibətlərinin inkişafında mühüm dönüş nöqtəsi 2024-cü il mayın 6-da Slovakiyanın Baş naziri Robert Fitsonun Azərbaycana rəsmi səfəri zamanı baş verib. Prezident İlham Əliyev ilə keçirilən görüşlərin yekununda Azərbaycanla Slovakiya arasında Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamənin imzalanması ilə Bakı–Bratislava münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu sənədlə tərəflər arasında strateji tərəfdaşlığın hüquqi-siyasi əsasları rəsmiləşdirildi. İmzalanmış sənədlər Azərbaycan və Slovakiya arasında siyasi dialoqun daha da dərinləşdirilməsi, eləcə də ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. “Şadam ki, Azərbaycan-Slovakiya əlaqələrinin inkişafı uğurla gedir. Bizim siyasi təmaslarımız müntəzəm xarakter alır”. Bu sözləri Prezident İlham Əliyev Slovakiya Prezidenti Peter Pelleqrini ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı qeyd edib ki, dinamik əlaqələrin inkişafı iki tərəfin niyyətini göstərir.

### “BİZ KONKRET İŞLƏRİN TƏRƏFDARIYIQ”

Bu günədək iki ölkə arasında müxtəlif sahələri əhatə edən 19 sənəd imzalanıb. Xüsusilə 2021-ci ildə imzalanan iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası saziş və onun əsasında yaradılan Birgə İşçi Qrupu sənaye, kənd təsərrüfatı, logistika, innovasiya və investisiya istiqamətlərində yeni layihələrin həyata keçirilməsi üçün institusional mexanizm formalaşdırıb. Enerji sahəsi Azərbaycan–Slovakiya əməkdaşlığının strateji istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Avropada enerji təhlükəsizliyi məsələlərinin aktuallaşdığı bir dövrdə Slovakiya enerji təchizatının şaxələndirilməsinə böyük önəm verir. Azərbaycan isə etibarlı enerji tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyində rolunu ardıcıl şəkildə gücləndirir. Bu baxımdan, ”Həmrəylik Halqası” təşəbbüsü Xəzər regionunun enerji resurslarının Mərkəzi və Şərqi Avropaya çatdırılmasını təmin edən mühüm regional layihələrdən biri hesab olunur. Enerji tərəfdaşlığının praktik nəticələri artıq görünməkdədir. 2024-cü il dekabrın 1-dən ilk dəfə Azərbaycan qazının Slovakiyaya ixracına başlanılıb. Bu, iki ölkə arasında enerji əməkdaşlığının yeni mərhələyə keçdiyini və Slovakiyanın enerji təchizatının şaxələndirilməsində Azərbaycanın rolunun artdığını göstərir. “Əminəm ki, bundan sonra da bu münasibətlər inkişaf edəcək. Çünki biz konkret işlərin tərəfdarıyıq”, - deyə Prezident İlham Əliyev səsləndirib. “Hər iki tərəf ikitərəfli münasibətlərə çox böyük önəm verir. Deyə bilərəm ki, son illər ərzində çox güclü tərəfdaşlıq yaradılmışdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

### “BİZ ÇOX ŞADIQ Kİ, SLOVAKİYA QARABAĞIN BƏRPASINDA FƏAL İŞTİRAK EDİR”

Qarabağın bərpası Azərbaycan–Slovakiya əməkdaşlığına yeni məzmun qazandıran istiqamətlərdəndir. Slovakiya şirkətləri işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndində ”Ağıllı kənd” konsepsiyası çərçivəsində həyata keçirilən layihələrdə fəal iştirak edirlər. 2025-ci ilin sentyabrında bu ölkənin ”Concago j.s.a.” şirkəti və onun yerli tərəfdaşı ”IMA ENERGY” MMC tərəfindən fərdi yaşayış evlərinin tikintisinə dair müqavilə imzalanıb və layihənin icrasına başlanılıb. Bu əməkdaşlıq Avropa texnologiyalarının və innovativ həllərin Qarabağın yenidən qurulmasına cəlb edilməsinin uğurlu nümunəsidir. “Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir”. Bu barədə Prezident İlham Əliyev Slovakiya Prezidenti Peter Pelleqrini ilə mətbuata bəyanatında bildirib. “Bu gün biz cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Burada Slovakiya şirkəti “ağıllı kənd” layihəsini icra edir və bu layihə ilə tanış olacağıq”, - deyən dövlətimizin başçısı Qarabağın bərpasına verdiyi dəstəyə görə Slovakiya Prezidentinə bir daha təşəkkürünü bildirib.

Dövlətlərarası münasibətlər siyasi dialoqa, etibarlı tərəfdaşlıq, müttəfiqlik münasibətinə söykənir və bu, uğurlu əməkdaşlıq üçün müstəsnadır. Əminliklə vurğulayaq ki, bu səfər bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasına əhəmiyyətli təkan verəcək, gələcək inkişaf üçün böyük perspektivlər açacaqdır. Dövlət başçımızın bildirdiyi kimi, bu gün Azərbaycan-Slovakiya siyasi əlaqələri çox yüksək səviyyədədir. Prezident İlham Əliyev bildirib ki, qarşılıqlı səfərlər bunu əyani şəkildə göstərir.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev Fələstinin Baş nazirini qəbul edib



***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 16-da Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafanı qəbul edib. Dövlətimizin başçısı Baş nazir Məhəmməd Mustafanın ölkəmizə səfərinin Azərbaycanla Fələstin arasında qardaşlıq münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi. Azərbaycan Prezidenti ölkəmizin paytaxtı Şərqi Qüds olmaqla, müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu bildirən Məhəmməd Mustafa Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını Prezident İlham Əliyevə çatdırdı.***

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Mahmud Abbasın ölkəmizə səfərini, həmçinin beynəlxalq tədbirlər çərçivəsində onunla görüşlərini məmnunluqla xatırladı.

Məhəmməd Mustafa Fələstində hazırda çətin vəziyyətin hökm sürdüyünü deyərək, bu durumdan dostların köməyi ilə çıxa biləcəklərinə ümidvarlığını ifadə etdi. Bu xüsusda o, Azərbaycanın Fələstinə göstərdiyi dəstəyə, həmçinin humanitar dəstək kimi Fələstində orta məktəbin tikintisi ilə bağlı niyyətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Ramallah şəhərində Azərbaycanın Təmsilçilik Ofisinin açılması, Fələstinin ölkəmizdəki səfirliyinin xərclərinin isə Azərbaycan dövləti tərəfindən qarşılanması ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirildi. Görüşdə 2013-cü ildə ölkəmizin ev sahibliyi etdiyi "İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin yaradılmasına dair Konfrans"ın və "Qüds şəhərinin inkişaf etdirilməsi məqsədilə sektor planının maliyyələşdirilməsinə dair Donor ölkələrin Konfransı"nın nəticəsi olaraq Azərbaycanın Fələstinə 5 milyon dollar maliyyə yardımı etməsi xatırlanaraq, ölkəmizin, eyni zamanda, BMT-nin UNRWA təşkilatı vasitəsilə də Fələstinə yardım etdiyi vurğulandı.

"Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" hesabına 23, ümumilikdə isə 37 fələstinli tələbənin Azərbaycanda təhsil alması yüksək qiymətləndirildi. Baş nazir bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Söhbət zamanı Fələstinin bəzi kənd təsərrüfatı məhsullarının ölkəmizə güzəştli şərtlərlə ixracı məsələsi müzakirə olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Prezident İlham Əliyev "John Deere" şirkətinin nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da "John Deere" şirkətinin MDB və Mərkəzi Asiya ölkələri üzrə prezidenti, "John Deere Walldorf International" MMC-nin Baş icraçı direktoru Çaba Leykonu və şirkətin MDB üzrə vitse-prezidenti Peter Zakseni qəbul edib. Söhbət zamanı dövlətimizin başçısının Çaba Leyko ilə ötən il Bakıda görüşü məmnunluqla xatırlandı. Qonaqlar ölkəmizdə gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedilər. "John Deere" şirkətinin Azərbaycanda uğurlu fəaliyyətinə toxunan Çaba Leyko ölkəmizlə əməkdaşlığı genişləndirilməkdə maraqlı olduqlarını bildirdi.**

Görüş əsnasında ölkəmizdə kənd təsərrüfatının geniş potensialının olduğu vurğulandı, bu sahədə müasir texnologiyaların tətbiq edildiyi bildirildi, kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərə toxunuldu və bu xüsusda qəbul olunmuş yeni Dövlət Proqramının əhəmiyyəti qeyd edildi. Söhbət zamanı Azərbaycanla "John Deere" şirkəti arasında gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, kənd təsərrüfatının bir çox istiqaməti üzrə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Qeyd edək ki, "John Deere" 1837-ci ildə ABŞ-də yaradılıb. Kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı sahəsində qlobal miqyasda aparıcı şirkətlərdən biri olan "John Deere"nin 30-dan çox ölkədə zavodları və ofisləri fəaliyyət göstərir.

# Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib

***Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri paylaşdığı üçün ABŞ Prezidenti Donald Trampa təşəkkür edib. Bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib.***

Paylaşımda deyilir: "Cənab Prezident,

Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və "Breitbart" nəşrinə istinadən Sizi "Sülh İnsanı" kimi xarakterizə etdiyim fikirlərimi paylaşdığınıza görə Sizə təşəkkür edirəm.

Tarixi Vaşinqton Sammitinin birinci ildönümünə bir aydan az vaxt qaldığı bir dövrdə Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün bərqərar olunması istiqamətində əvəzsiz rolunuza görə Sizə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim. Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha yaxınlaşmasına tarixi töhfə verib. Siz həqiqətən də Sülh İnsanısınız".







# Rusiyaya qarşı “Cəhənnəm sanksiyaları”

***Qanun layihəsi senator Qrehemin şərəfinə qəbul ediləcək və İran və Hizbullaha qarşı məhdudiyyətlər əlavə olunacaq. ABŞ prezidenti Donald Tramp, senatorlar Lindsi Qrehem və Riçard Blumental tərəfindən hazırlanan və 17 dekabr 2025-ci ildə Senata təqdim edilən Rusiyaya qarşı sanksiyalar qanun layihəsinin qəbul ediləcəyini və Qrehemin şərəfinə imzalayacağını proqnozlaşdırır. Amerika lideri bunu 14 iyul çərşənbə axşamı günü keçirilən mətbuat konfransında açıqlayıb.***

## *Tramp Rusiyaya qarşı yeni sanksiyalar haqqında qanun layihəsini dəstəkləyir*

Tramp Rusiyaya qarşı sanksiyalar qanun layihəsinin yaxın bir-iki həftə ərzində qəbul edilməsi ehtimalı və onu imzalayıb-imzalamayacağı ilə bağlı suala cavab verib: ”Bilirəm ki, Lindsi həqiqətən bunu istəyirdi... Beləliklə, biz bunu nəzərdən keçiririk, amma biz bunu ciddi şəkildə nəzərdən keçiririk və bu, Lindsinin şərəfinədir. Bu, onun işi idi. O, bunu hər şeydən çox istəyirdi, bilirsiniz. Onun necə hiss etdiyini bilirsiniz. Və bunun həyata keçirilməsi üçün böyük bir şans var”.

Bundan əlavə, ABŞ prezidentinin sözlərinə görə, onlar bu qanun layihəsinə İran və Hizbullaha qarşı sanksiyalar əlavə etmək istəyirlər. Məlum olduğu kimi, 10 iyulda Qrem ardıcıl olaraq onuncu dəfə Ukraynaya səfər edərək Rusiyaya qarşı sanksiyaları müzakirə etmək üçün Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşmüşdü. O, 11 iyulda qəfildən vəfat etdi.

### Senat sanksiyaları düzəlişlər etmədən qəbul etmək istəyir

Qanun layihəsinin avqust tətilindən əvvəl qəbul edilməsi gözlənilir. Trampın ”cəhənnəm sanksiyaları” qanununa təklif etdiyi düzəlişlərə ayrıca baxıla bilər. Hər iki partiyadan olan bir qrup ABŞ senatoru, mərhum senator Lindsi Qrehemin iki ildən çox üzərində işlədiyi Rusiyaya qarşı yeni sanksiyalar qanun layihəsinə mümkün qədər tez səs verməyə çağırdı. Lakin senatorlar ABŞ prezidenti Donald Trampın təklif etdiyi yeni müddəaları dəstəkləmirlər. Qanunvericilər bunu 14 iyulda birgə mətbuat konfransında bildiriblər.

Senatorlar qanun layihəsinin artıq Ağ Ev tərəfindən təsdiqləndiyini, geniş ikipartiyalı dəstəyə malik olduğunu və heç bir düzəliş tələb etmədiyini bildiriblər. Onlar sənədin təxminən iki illik danışıqların nəticəsi olduğunu və mürəkkəb texniki sanksiya mexanizmlərini ehtiva etdiyini, buna görə də onu yeni düzəlişlərə açmağın uyğun olmadığını qeyd ediblər.

Nümayəndələr Palatasının spikeri Mayk Conson qanun layihəsini dəstəkləyib. ”Biz uzun müddətdir Rusiyaya qarşı sanksiyalar qanunvericiliyini dəstəkləyirik və respublikaçıların böyük əksəriyyəti bunu edir. Senat və Ağ Ev işləyəcəyinə inandıqları bir formula hazırlayıblar və biz bunun üzərində işləməkdən məmnunuq”, - deyə o bildirib.

Qanunvericilər əvvəllər İran və ya Hizbullahla bağlı sanksiyaların qanun layihəsinə əlavə edilə biləcəyini təklif edən Trampın açıqlamasına cavab verdilər. Qanun layihəsinin həmmüəllifi, Demokrat senator Riçard Blumental bildirib ki, Amerika prezidenti qanun layihəsini dəstəkləyir, lakin o, hazırkı formada qəbul edilməlidir. ”Prezident bu qanun layihəsini təsdiqləyib və biz onu digər potensial hədəflərə açmaq əvəzinə, irəliləməliyik. Əgər administrasiya İran və ya Hizbullahla bağlı ayrıca qanunvericilik təşəbbüsləri təklif etmək istəyirsə, Konqres onları ayrıca nəzərdən keçirə bilər”, - Blumental bildirib. Senatorun sözlərinə görə, qanun layihəsi Rusiyanın Ukrayna mülki əhalisinə qarşı hücumlarına cavab olmalıdır və hər hansı bir gecikmə daha çox itki deməkdir.

Senatorlar həmçinin qanun layihəsinin avqust tətilindən əvvəl qəbul ediləcəyinə əminliklərini bildiriblər. Onlar bildiriblər ki, Respublikaçı Əksəriyyətin Lideri Con Tune lazımi sayda səs təsdiqləndikdən sonra onu səsverməyə çıxarmağa hazırdır. Qanun layihəsinin müəlliflərinə görə, belə dəstək artıq mövcuddur. Sənəd Rusiyaya, onun şirkətlərinə, oliqarxlarına və vasitəçilərinə qarşı sərt sanksiyaları, eləcə də Rusiya neft və qazının ən böyük alıcılarına qarşı ikinci dərəcəli sanksiyaları və tarifləri nəzərdə tutur. Senatorların sözlərinə görə, Ağ Evlə danışıqlar zamanı onlar onun əhatə dairəsini əhəmiyyətli dərəcədə daraldıblar. Birinci versiya 60-dan çox ölkəyə tarif tətbiq etmək imkanını nəzərdə tutsa da, sənəd hazırda yalnız beş əsas neft idxalçısına və beş təbii qaz idxalçısına yönəlib ki, bunların bəziləri üst-üstə düşür. Qanun layihəsi həmçinin daha dar sanksiyalardan imtina mexanizmlərini tətbiq edir və ABŞ Ticarət Nümayəndəsinin konkret tarif dərəcələrini müəyyən etmək səlahiyyətlərini genişləndirir.

Bundan əlavə, qanun layihəsinin müəllifləri bildiriblər ki, qanun layihəsinin ayrıca bir bölməsi ilk dəfə olaraq Rusiyanın sözdə ”kölgə donanması”na - Moskvanın beynəlxalq sanksiyalardan yayınmaq və neft ixrac etmək üçün istifadə etdiyi tankerlər şəbəkəsinə qarşı mübarizəyə yönəlib. Blumenthalın sözlərinə görə, yeni versiyada donanmanın fəaliyyətini məhdudlaşdırmaq üçün effektiv və hədəflənmiş vasitələr var ki, bu da Rusiyanın enerji satışından gəlir əldə etməsini daha da çətinləşdirməlidir.

Senatorlar həmçinin bildiriblər ki, qanun layihəsinin qəbul edilməsi Rusiyaya qarşı artan sanksiya təzyiqinin əsas hərəkətverici qüvvələrindən biri olan və ölümündən bir az əvvəl qanun layihəsinin son versiyasını Tramp administrasiyası ilə əlaqələndirməyi bacaran Lindsi Qrehemin xatirəsini yad edəcək.

Xatırladaq ki, senatorların 14 iyulda təqdim etdiyi versiyada Rusiyadan neft və qaz alan ölkələrə tətbiq edilən rüsum 100%-ə endirilib, orijinal versiya isə 500%-dir.

Tramp əvvəllər senatorlar Lindsi Qrehem və Riçard Blumental tərəfindən hazırlanan Rusiyaya qarşı sanksiyalar qanun layihəsinin qəbul ediləcəyini və Qrehemin şərəfinə onu imzalayacağını açıqlayıb. Lakin ABŞ prezidentinin sözlərinə görə, onlar qanun layihəsinə İran və Hizbullaha qarşı sanksiyalar əlavə etməyi planlaşdırırlar.



**Demokrat senator Riçard Blumenthal**

**Bu arada...**

ABŞ Senatının Rusiyaya qarşı ”cəhənnəm sanksiyalarını” yumşaltdığı xəbəri yayılıb. Mərhum Lindsi Qrem tərəfindən hazırlanan qanun layihəsi əvvəlcə Rusiyadan neft və qaz alan ölkələrə 500% tarif tətbiq etməyi nəzərdə tuturdu. Tarif artıq 100% təşkil edir. Təsirə məruz qalan ölkələrin adları açıqlanıb.

14 iyul çərşənbə axşamı günü ABŞ Senatı senatorlar Lindsi Qrem və Riçard Blumental tərəfindən yazılmış Rusiyaya qarşı ”cəhənnəm sanksiyaları” qanun layihəsinin azaldılmış versiyasını təqdim edib. Reuters agentliyinin məlumatına görə, qanun layihəsi Rusiya rəsmilərinə, maliyyə qurumlarına və enerji layihələrinə məhdudiyyətlər qoymağı və Rusiya enerji resurslarını idxal edən ölkələrə tarif tətbiq etmə mexanizmini dəyişdirməyi nəzərdə tutur.

Qeyd olunur ki, həm respublikaçılar, həm də demokratlar tərəfindən dəstəklənən yenilənmiş qanun layihəsi Rusiyaya və Rusiya neft və qazını almağa davam edən ölkələrə təzyiq göstərmək üçün sanksiya və tariflərdən istifadəni nəzərdə tutur. Sənədin 2025-ci ilin aprelində senatorlar Lindsi Qrem və Riçard Blumental tərəfindən təqdim edilən orijinal versiyası ilə müqayisədə yeni versiya Rusiya enerji resurslarının üçüncü ölkə alıcıları üçün nəzərdə tutulan tarifləri yumşaldır.

Xüsusilə, əvvəllər təklif olunan 500% universal tarif əvəzinə, yenilənmiş versiya Rusiya neft və təbii qazının ən böyük beş alıcısı üçün 100%-ə qədər tariflərə imkan verir. Bəyanatda deyilir: ”Sənədin yeni versiyası Rusiya neft və təbii qazının üçüncü ölkə alıcılarına tətbiq edilə biləcək tarifləri əvvəllər təklif olunan 500% universal tarif əvəzinə, ən böyük beş alıcı üçün maksimum 100%-ə qədər yumşaldır”.

Agentliyin istinad etdiyi senator köməkçilərinə görə, Rusiya neftinin ən böyük alıcılarının siyahısına Çin, Hindistan, Slovakiya, Macarıstan daxildir. Bu arada, Rusiya təbii qazının ən böyük idxalçıları Çin, Fransa, Yaponiya, Macarıstan və Belçikadır.

Qanun layihəsinin yenilənmiş versiyası həmçinin Rusiya təbii qazının 15%-dən azını alan və bu asılılığı azaltmaq üçün addımlar atan ölkələr üçün güzəştlər nəzərdə tutur. Bu güzəşt üçün uyğun ola biləcək ölkələrə Yaponiya, Fransa, Macarıstan və Belçika daxildir. Bundan əlavə, yenilənmiş versiyada ABŞ prezidenti Donald Trampın ABŞ-ın milli maraqlarına uyğun hesab etdiyi təqdirdə sanksiyalardan imtina etməsinə imkan verən müddəa da yer alır. Senator köməkçiləri bildiriblər ki, qanun layihəsinin artıq 26 həmmüəllifi var və bu rəqəm tezliklə arta bilər.

Daha əvvəl Tramp senatorlar Lindsi Qrem və Riçard Blumental tərəfindən hazırlanan Rusiyaya qarşı sanksiyalar qanun layihəsinin qəbul ediləcəyini və Qremin şərəfinə onu imzalayacağını açıqlamışdı. 10 iyulda Qrem ardıcıl olaraq onuncu dəfə Ukraynaya səfər edərək Rusiyaya qarşı sanksiyaları müzakirə etmək üçün Ukrayna prezidenti Volodimir Zelenski ilə görüşmüşdü. O, 11 iyulda qəfildən vəfat etdi.

***V.VƏLİLİ***

# Dünya mediası Şuşadan səslənən mesajları təhlil edir

***Bu günlər Azərbaycan yenidən dünyanın diqqət mərkəzindədir. Çünki ölkəmiz növbəti dəfə Qlobal Media Forumuna ev sahibliyi edir. Şuşada təşkil edilən Media Forumunda dünyanın müxtəlif bölgələrindən, o cümlədən Azərbaycanımızın meda kapitanları, siyasətçiləri, elm adamları iştirak ediblər. Ümumilikdə Forum çərçivəsində 53 ölkədən 160 nümayəndə, o cümlədən 30 xəbər agentliyinin nümayəndələri, 60-dan çox media qurumu, həmçinin, media sahəsində fəaliyyət göstərən 10 beynəlxalq təşkilat və təsisatın təmsilçiləri iştirak edib.***




Forum çərçivəsində media, süni intellekt, dezinformasiya ilə mübarizə, media diplomatiyası, şəhərsalma narrativləri, etimadın bərpası və digər aktual mövzulara həsr olunmuş panel müzakirələri keçirilib. Artıq iki gün davam edən IV Şuşa Qlobal Media Forumu uğurla öz işini başa çatdırıb. Şuşa Qlobal media Forumun ilk günü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib və diqqətə səbəb olunan, uzun müddət müzakirə predemeti olacaq aktual mövzulardan danışıb, beynəlxalq aləmdə baş verən münaqişələrə dair fikirlərini bildirib və forum iştirakçılarının suallarını cavablandırıb.

Prezident İlham Əliyev forumun açılışı zamanı çıxışında Zəngəzur dəhlizinin vacib layihə olduğunu bildirdi və qeyd etdi ki, bu layihə Azərbaycanı onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək: "Zəngəzur dəhlizi eyni zamanda, Cənubi Qafqazda iqtisadi əməkdaşlığın genişlənməsinə, beynəlxalq yükdaşımaların sürətlənməsinə və regionun tranzit potensialının daha da gücləndirilməsinə töhfə verəcək". Prezident İlham Əliyev çıxışında 2025-ci il avqustun 8-də Ağ Evdə keçirilən tarixi görüşə də diqqət ayırdı. Prezident İlham Əliyev həmin görüş zamanı ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla birlikdə üçtərəfli bəyanat imzalandığını, eyni zamanda hər iki ölkənin xarici işlər nazirlərinin sülh sazişini parafladıqlarını tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Açıq mövqeyi ilə Prezident İlham Əliyev bir daha Azərbaycanın sülh təşəbbüslərinə sadiqliyini, regionda uzunmüddətli sabitliyin təmin olunmasına yönəlmiş ardıcıl siyasətini və qarşılıqlı əməkdaşlığın inkişafına önəm verdiyini nümayiş etdirdi. Prezident İlham Əliyev Azərbaycanın enerji siyasəti və Avropanın enerji təhlükəsizliyində artan rolu ilə bağlı mühüm açıqlamalar da verdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Avropa İttifaqı (Aİ) ölkələrinə təbii qaz tədarükünü genişləndirməklə bağlı danışıqlar aparır. Bu ilin əvvəlindən Avstriya və Almaniyaya qaz tədarükünə başlanılması Azərbaycanın Avropa bazarında mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edən strateji addımlardan biridir. Hazırda ölkəmiz boru kəmərləri vasitəsilə 16 ölkəyə təbii qaz ixrac edir ki, bu da Azərbaycanın beynəlxalq enerji bazarında etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirir.

### Dünya mediası əsas yazılarını Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda çıxışına həsr edib

Avropa İttifaqı və AŞPA ilə Azərbaycan arasında əlaqələrindən danışarkən Prezident İlham Əliyev diqqətə çatdırdı ki, Azərbaycan Avropa Şurasından tam çıxmağı nəzərdən keçirir: "Avropa Şurasının Parlament Assambleyasına vaxtı ilə başqa bir mənzərə vardı. Mən təəssüf edirəm ki, belə bir hal baş verib. Vaxtilə mən 2001-ci ildə Azərbaycan Parlamentində üzv olduqda nümayəndə heyətinə rəhbər idim. İki il orada çalışdım. Orada il ərzində 4 sessiya keçirildi. Mənim üçün bu xoşa gəlməz hadisəsi idi. 2023-cü ildə biz öz legitim hüququmuzdan istifadə edərək separatçıların əlində qalan torpaqlarımızı işğaldan azad etdik. Lakin Azərbaycanı cəzalandırmaq üçün qətnamələr qəbul etdilər. 2024-cü ildə yanvarında Azərbaycan nümayəndə heyətinin akkreditasiyanı sual altına çəkdilər və səsvermə hüququndan məhrum etdilər. Bu, sırf insan hüquqları ilə bağlı məsələ deyildi. Onunla bağlı olsaydı daha əvvəldən edərdilər. Bu, sadəcə bizimlə, ərazi bütövlüyümüzlə bağlı bir cəza idi. Azərbaycan nümayəndə heyəti çox müdrik qərar qəbul elədi. Onlar görüşlərdə iştirakdan imtina etdilər. Əgər bizim səsvermə hüququmuz yoxdursa, nəyə görə biz orada olmalıyıq?!".

Dünyanın ən nüfuzlu media orqanları, televiziyaları əsas buraxılışlarını, manşet yazılarını mədəniyyət paytaxtı olan Şuşada dördüncü ildir ki, yüksək səviyyədə keçirilən Qlobal Media Forumuna həsr edib. Türkiyə, Misir, Pakistan, Gürcüstan, Kanada, Fransa, Böyük Britaniya, Qazaxıstan, Özbəkistan, Pakistan və digər dövlətlərin nüfuzlu nəşrlər, telekanalları Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda çıxışına xüsusi diqqət ayırıblar. Pakistanın "Associated Press of Pakistan" (APP) və DND xəbər agentliyi Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri geniş işıqlandırıblar. Pakistan mediası Prezident İlham Əliyevin Pakistanın Baş naziri Şahbaz Şərifin və Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi, feldmarşal Asim Munirin ABŞ-İran münaqişəsində sülhün təmin olunması və dialoqun təşviqi istiqamətində mühüm rol oynadıqlarını bildirdiyini və göstərdikləri vasitəçilik səylərini yüksək qiymətləndirdiyini qeyd edib. Avropanın aparıcı xəbər platformalarından olan "Euronews" Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışında Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə dair səsləndirdiyi fikirləri ön plana çıxarıb. Nəşr dövlət başçısının Azərbaycanın Avropa Şurasından tam çıxmaq imkanını nəzərdən keçirdiyini yazıb. Bildirilib ki, bu məsələ Azərbaycan nümayəndə heyətinin 2024-cü ildə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) səsvermə hüququnun dayandırılmasından sonra gündəmə gəlib.Məqalədə Prezident İlham Əliyevin Azərbaycanın təşkilatda üzvlüyünün sadəcə dayandırılması və ya dondurulması deyil, Avropa Şurasını tam tərk etməyi nəzərdən keçirdiyini bildirdiyi qeyd olunub.

Çin Xalq Respublikasının "NetEase" və "Tencent News", fikirlər Belçikanın "Business AM" xəbər portalları , Ukraynanın "Korrespondent", "24 Kanal", "Delovaya Stolitsa", "Gordon", "Ukrinform", "Obozrevatel", "Censor.NET", "iPress", "112 Ukraina" və "Evropeyskaya Pravda" kimi tanınmış xəbər saytları və portalları, Serbiyanın "Tanjug", "RTV", "NIN", "Blic", "Info365", "Politika", "Novine Srbija" və "Ve ernje novosti" xəbər agentlikləri, onlayn qəzet və xəbər portalları da Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışının əsas məqamlarını geniş işıqlandırıblar. "Reuters Connect", "Business AM", "CE Energy News", "Newsy Today", "RT Arabic", Almaniyanın "Deutsche Welle" yayım qurumu və digər tanınmış xəbər portalları da Prezident İlham Əliyevin Forumda regional və qlobal məsələlərlə bağlı səsləndirdiyi fikirləri diqqət mərkəzində saxlayıb. Xəbərlərdə dövlətimizin başçısının Forumun qlobal media dialoqunu gücləndirmək, dezinformasiya ilə mübarizə aparmaq və sülhə töhfə vermək missiyasını daşıdığı barədə fikirlərinə yer verilib.

Bolqarıstanın "NRD", "Delnik", "BTA", "Novini", "Manager.bg", Rumıniyanın "Evenimentul Zilei", "Briefed.ro", "Monitorul Zilei", "Astazi", "Sinteza Presei", Yəmənin "Saba News Agency", Tacikistanın "Khabari Khush" informasiya agentlikləri, xəbər portalları ,Moldovanın "Jurnal.md", "Telegraph Moldova", "Point.md" və "Noi.md" portalları, Rusiyanın "Gazeta.Press", Belarusun "Nasha Niva", "News.by", Yunanıstanın "Banking News", "Olympia.gr" media qurumları, Tehranda nəşr olunan "IRNA" Dövlət Xəbər Agentliyi, "Euronews Persian", "Akharin Khabar", "Borna News", "Sarnevis.ir", "Khabar Farsi", "Vista.ir" və "Ghatreh" media orqanlarında, Litvanın "Respublika.lt", "Delfi.lt", "LRT" Milli Radio və Televiziyasının portalı, eləcə də "TV3" xəbər platformasında , Özbəkistanın "Buzb.uz", "Buxoroisharif.uz", "NewsHub.uz" və "UzA" Milli İnformasiya Agentliyi, Tacikistanın "Khabari Khush" xəbər portalı, eləcə də Qırğızıstanın "TRT Kyrgyz" xəbər portal, İordaniyanın Petra Dövlət Xəbər Agentliyi, "FANA News", "Al-Qalah News" və "Ammon News", "Misirin Al-Ghad", "Youm7", "Rosa El-Youssef" və "Baladna Elyoum", həmçinin Səudiyyə Ərəbistanı və ərəb dünyasının "RT Arabic", "Nabd", "Khawlan Press" və "Akhbar Al-An" media orqanlarında, Gürcüstanın "Fortuna" Radiosu" və digər beynəlxalq miqyasda tanınmış televiziyalar və media orqanları Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışına yer veriblər.

Yaponiyanın "Nippon.com", "Jiji Press", "Himeji Keizai Shimbun" və "NewsPicks" kimi nüfuzlu xəbər resursları Prezident İlham Əliyevin Yaponiya ilə Azərbaycan arasındakı münasibətlərə dair bəyanatları oxucuların diqqətinə çatdırıb. Məqalələrdə dövlətimizin başçısının iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq potensialının olduğunu bildirdiyi, həmçinin bu sahədə təcrübə mübadiləsi və birgə istehsal imkanlarını vurğuladığı qeyd olunub.

### Süni intellekt dövrün ən mühüm texnoloji yeniliklərindən biridir

IV Şuşa Qlobal Media Forumunun ikinci günündə də diqqətçəkən panel müzakirələri aparıldı. Xüsusilə də, "Etimadın bərpasında media diplomatiyası və media savadlılığının rolu", "Süni intellekt, vizual təqdimatlar və yeni nəsil təcrübələr" mövzusunda panel sessiyası uzun müddət yaddaşlardan silinməyəcək müzakirələrlər aparıldı. Birinci sessiyada çıxış edən İordaniya Haşimilər Krallığının Kommunikasiya Nazirliyinin Baş katibi Zaid Al Nawaiseh Şuşa Qlobal Media Forumunun beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi baxımından mühüm platforma olduğunu bildirib: "Əvvəllər əsas problem informasiyaya çıxışın məhdud olması idisə, bu gün informasiya əlçatandır. Əvvəllər əsas sual məlumatın əlçatan olub-olmaması idi. Bu gün isə əsas məsələ məlumatın etibarlı olub-olmamasıdır. Etimad etibarlılıq, şəffaflıq və auditoriyanın məlumatı düzgün dəyərləndirmək bacarığından asılıdır. Süni intellekt sürətlə inkişaf edir və daim yeni imkanlar yaradır. Buna görə də bu sahədə daha diqqətli olmalıyıq". Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibinin müavini Zhang Ling isə çıxışında diqətə çatdırdı ki, beynəlxalq medianın rolu qlobal informasiya mühitində böyük əhəmiyyət daşıyır: "İctimaiyyətin operativ və düzgün məlumatlandırılması, həmçinin hadisələrə vaxtında və dəqiq reaksiya verilməsi etimadın formalaşmasında əsas amillərdəndir".

"Süni intellekt, vizual təqdimatlar və yeni nəsil təcrübələr" mövzusunda panel sessiyasında çıxış edən texnobloqer Fərid Pərdəşünas insanların artıq xəbərləri süni intellekt vasitəsilə əldə etməyə üstünlük verdiklərini bildirib: "İnsanlar gündəmi izləmək üçün artıq sosial mediadan belə istifadə etmək istəmirlər. Statistikalar göstərir ki, istifadəçilərin təxminən 10 faizi xəbərləri süni intellekt vasitəsilə oxuyur. Süni intellekt nə qədər inkişaf etsə də, insan yaradıcılığı tələb edən peşələr tamamilə aradan qalxmayacaq".

Paneldə çıxış edən texnobloqer Tariyel Ağazadə isə bildirib ki, süni intellekt dövrün ən mühüm texnoloji yeniliklərindən biridir. Onun sözlərinə görə, süni intellekt vasitəsilə hazırlanan saxta məlumatlar bəzən çox peşəkar görünür: "Bu, artıq ciddi riskdir. Bunun qarşısını almaq üçün rəqəmsal savadlılığın artırılması vacibdir. Məsələn, hər hansı bankın loqosundan istifadə etməklə insanları asanlıqla aldatmaq mümkündür. Belə halların sayı getdikcə artır".

Politoloq Gela Vasadze isə çıxışında qeyd edib ki, ictimai rəyin manipulyasiyası yeni hal deyil və bu, yalnız süni intellekt vasitəsilə həyata keçirilmir: "İnformasiyanı müxtəlif mənbələrdən əldə etmək mümkündür. Əsas məsələ onun mənbəyini sorğulamaqdır. Süni intellekt işimizi xeyli asanlaşdırır, lakin onun yarada biləcəyi riskləri və fəsadları da nəzərə almalıyıq".

***İ.ƏLİYEV***

# Kollec diplomu ilə imtahansız hansı universitetlərə qəbul olmaq olar?



**Ekspert mühüm məqamlara aydınlıq gətirdi**

"Kollec məzunları, yəni subbakalavrlar müəyyən şərtlər daxilində qəbul imtahanlarında iştirak etmədən yalnız müsabiqə yolu ilə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul oluna bilərlər. Bu proses Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə tənzimlənir və əsas prinsip kollec üzrə əldə edilmiş ixtisasla universitetdə seçilən ixtisas arasında uyğunluğun təmin edilməsidir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Doktorant və Magistrlar Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov bildirib. Onun sözlərinə görə, ilk növbədə qeyd etmək lazımdır ki, subbakalavrlar universitetə sənəd verərkən istənilən ixtisası seçə bilmirlər:

"Bunun üçün hər il Dövlət İmtahan Mərkəzi tərəfindən təsdiq edilən ixtisas uyğunluğu cədvəli əsas götürülür. Həmin cədvəldə kollec ixtisaslarının hansı bakalavr proqramlarına uyğun gəldiyi dəqiq şəkildə göstərilir. Məsələn, mühasibat uçotu ixtisası üzrə kollec təhsili alan şəxs universitetdə mühasibat uçotu, maliyyə, iqtisadiyyat və digər yaxın istiqamətli ixtisaslar üzrə müsabiqədə iştirak edə bilər. Eyni zamanda informasiya texnologiyaları, proqramlaşdırma və kompüter sistemləri üzrə kollec məzunları uyğun İT və mühəndislik proqramlarını seçə bilərlər.

Tədris dili də mühüm şərtlərdən biridir. Subbakalavrlar adətən kollecdə hansı dildə təhsil alıblarsa, bakalavriat səviyyəsində də həmin dildə təhsil almaq hüququ əldə edirlər. Buna görə də sənəd qəbulu zamanı tədris dili məsələsinə xüsusi diqqət yetirilməlidir. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə isə əlavə qaydalar tətbiq olunur. İncəsənət, musiqi, dizayn, memarlıq, bədən tərbiyəsi və idman kimi sahələrə qəbul olmaq istəyən subbakalavrlar müsabiqədə iştirak etməklə yanaşı, Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi qabiliyyət imtahanlarından da uğurla keçməlidirlər. Yalnız bu halda həmin ixtisaslar üzrə qəbul hüququ qazanırlar.

Subbakalavrların imtahansız qəbul sistemi kolleclərdə əldə olunan bilik və bacarıqların ali təhsil səviyyəsində davam etdirilməsinə geniş imkan yaradır. Lakin bu imkanlardan istifadə etmək üçün ixtisas uyğunluğu, tədris dili və müsabiqə şərtləri diqqətlə



araşdırılmalı, seçimlər mövcud qaydalara uyğun şəkildə aparılmalıdır.

subbakalavrların imtahansız qəbul mexanizmi kolleclərdə əldə olunan bilik və bacarıqların ali təhsil səviyyəsində davam etdirilməsi üçün mühüm imkan yaradır. Lakin bu hüquq hər hansı ixtisasa sərbəst qəbul mənasına gəlmir. Məzun yalnız bitirdiyi kollec ixtisasına uyğun olan bakalavr proqramlarını seçə bilər və qəbul prosesi müəyyən edilmiş müsabiqə qaydaları əsasında həyata keçirilir.

Subbakalavrlar ixtisas seçimi zamanı həm dövlət sifarişli, həm də ödənişli yerləri seçə bilirlər. Dövlət sifarişli yerlərə qəbul üçün namizədlərin akademik göstəriciləri, xüsusilə də diplom əlavəsində əks olunan ümumi orta müvəffəqiyyət göstəriciləri mühüm rol oynayır. Müraciət edənlərin sayı plan yerlərini üstələdiyi hallarda seçim mövcud qaydalara uyğun olaraq müsabiqə əsasında aparılır. Xüsusi qabiliyyət tələb edən ixtisaslara müraciət edən subbakalavrlar əlavə olaraq qabiliyyət imtahanlarında da uğur qazanmalıdırlar. Həmçinin bəzi xüsusi təyinatlı ali təhsil müəssisələri və ya xüsusi qəbul qaydaları tətbiq olunan proqramlar üzrə ayrıca tələblər mövcud ola bilər. Odur ki, kollec məzunlarına tövsiyə olunur ki, ixtisas seçimi etməzdən əvvəl Dövlət İmtahan Mərkəzi tərəfindən hər il dərc olunan ixtisas uyğunluğu cədvəlini diqqətlə öyrənsinlər, qəbul qaydaları ilə yaxından tanış olsunlar və seçimlərini öz ixtisas istiqamətlərinə uyğun şəkildə həyata keçirsinlər. Subbakalavr statusu ali təhsil almaq üçün mühüm üstünlük yaratsa da, uğurlu qəbulun əsas şərti düzgün ixtisas seçimi, yüksək akademik göstəricilər və mövcud müsabiqə tələblərinə uyğunluqdur".

***Günay Hacıyeva***

# Slovakiya-Azərbaycan əlaqələrinin inkişafı uğurla davam edir



***Azərbaycanın regional və qlobal səviyyədə artan rolu, eləcə də beynəlxalq arenada həyata keçirdiyi fəal əməkdaşlıq siyasəti nüfuzlu beynəlxalq təşkilatlar və müxtəlif dövlətlərlə münasibətlərin yüksək səviyyədə qurulmasına geniş imkanlar yaradıb. Müstəqil dövlətimizin milli maraqlara əsaslanan xarici siyasəti nəticəsində ölkəmizin müstəqilliyinin təməli daha da möhkəmlənib. Suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycan bir çox dövlətlərlə yanaşı, Slovakiya ilə də münasibətlərin dərinləşdirilməsi və yeni strateji səviyyəyə yüksəldilməsi istiqamətində mühüm qərarlar qəbul edib, sənədlər imzalayıb. Bu isə dövlətlərarası əlaqələrin dinamik inkişafına əhəmiyyətli töhfə verib.***

İyulun 14-də Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinin ölkəmizə rəsmi səfəri iki ölkə arasında münasibətlərin qarşılıqlı etimada və tərəfdaşlığa əsaslanan dinamik inkişafının növbəti təzahürüdür. Səfər çərçivəsində ikitərəfli əməkdaşlığın perspektivlərinə dair aktual məsələlər müzakirə olunub, dövlət başçıları arasında təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlər keçirilib, mətbuata birgə bəyanatlar verilib. Məlum olduğu kimi, Azərbaycanda Slovakiya şirkətləri fəaliyyət göstərir və yol tikintisi ilə yanaşı, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsində iştirak edirlər. Slovakiya Azərbaycanla enerji, kənd təsərrüfatı, elektrik enerjisi, ətraf mühitin mühafizəsi və tikinti sahələrində əməkdaşlığın genişləndirilməsində xüsusi maraq göstərir. Əməkdaşlığın diqqətçəkən istiqamətlərindən biri də Slovakiya şirkətlərinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi layihələrdir. Bu gün Azərbaycanın əsas prioritetlərindən biri azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılması və keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsidir. Dost və tərəfdaş ölkələr də bu prosesə öz töhfələrini verirlər.

Prezident İlham Əliyev bu barədə bildirib: "Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir və biz bu gün cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Orada Slovakiya şirkəti "Ağıllı kənd" layihəsini icra edir və bu layihə ilə tanış olacağıq. Bu dəstəyə və Qarabağın bərpasına verdiyiniz töhfəyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm." Əminliklə demək olar ki, Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinin Azərbaycana rəsmi səfəri bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə yüksəlməsinə mühüm təkan verəcək, ikitərəfli münasibətlərin gələcək inkişafı üçün yeni imkanlar açacaq.

# Yağışlar başladı...



**FELYETON**

Yayın cırhacırıdır? Hava çox istidir? Hamı gileylənir? Canını qoymağa yer tapmır? Hara gedəcəyini bilmir? Bizə nə? Bizdə ki, belə deyil. Deyəndə ki, bir az əməli saleh adam olun, bəziləri az qalırlar adamın başını yarsınlar ki, niyə, bizə nə olub ki?.. O olub ki, budur ey, istidən ölürsünüz, canınızı qoymağa bir yer tapa bilmirsiniz. Lakin bizdə belə deyil axı. Allahtəalanın sevdiyi insanlardanıq. Ona görə də bizə fərqli tale yazıb. İstidir, hə, nə olsun ki? Bu istini ki, biz hiss etmirik... Yağışdır ki, yağır. Ha isti olsun: bir yandan istiləyirik, bir yandan da sərinləyirik.

Allah köməkləri olsun, ən ağıllı insanlar Bakı şəhərində yaşayır. Deyir, çətin günün qeydinə gərək yaxşı günlərdə qalasan. Bu deyim də elə bax, bizdən yana yaranıb. Yaxşı günlərimizdə, yəni ev alıb təmirə başlayanda düşünə bilmişik ki, qarşıda çətin günlər ola bilər. Biz də bu çətin günlərə elə hazırlıq görmüşük ki, həmin çətin gün yetişən kimi öhdəsindən gəlirik. Məsələn, bunlardan təkcə birini deyəcəm. Çünki söyləyəcəyim o bir günümüz üçün o qədər aktualdır ki, ta deyə bilmərəm. Havanın istisini bilirsiniz də. Günlərdir ki, əksər ölkələr od tutub yanır. Dünya istidən bişir. Biz bu istini hiss etmirik. O səbəbdən ki, bizdə isti olsa da, amma yağış da ara vermir. Hər gün yağır, küçədə adama elə sərinlik bəxş edir ki, deyirsən, İlahi, cənnətdəyəm ki...Bu yağışı bəxş edənə min alqış, iki min alqış...

Heç istəməzdim deyəm, çünki gəlib bizdən öyrənib sonra öz adlarına çıxacaqlar. Lakin deməyəndə də olmur axı. Onsuz da bu, bir tərəfdən bilinəcək, oğrular da gedib öz ölkə-şəhərlərində tətbiq edəcək, adı da olacaq onların. Deməli, məsələ belədir ki, bizdə yaxşı ustalar var. Evləri təmir edəndə elə məsləhətlər verirlər ki, çətin günə hazırlıq xarakteri daşıyır. Məsələn, deyirlər ki, kondisioner üçün kanalizasiya xəttinə heç bir halda ehtiyac yoxdur. Hələ durub neçə metr boru almalısan, onu evin içindən keçirib balkona aparmalısan, kondisionerə birləşdirməlisən. Buna nə ehtiyac var ki?.. Sudur da, Allahın suyu, guya bu su axıb yerə töküləndə nə olacaq ki? Bir ovuc sudur da... Guya bu su 24-cü, 25-ci mərtəbədən ətrafa yayılanda nə olacaq ki? Sudur da, elə bil yağışdır, yağır. Elə bil, yağışdır, yox, elə əsl yağışdır. İsti küçələrlə addımlayırsan, bir də baxırsan ki, üzünə su çilənir. Elə xoş gəlir, elə sərinləyirsən ki... Deyirsən istəyir havanın temperaturu 40-ı keçsin və ya 50-ni , nə fərqi var?

Sonra da deyirlər, Azərbaycanda ta ixtira-filan olmur, bunlar ötən əsrlərdə qalıb. Ağıllı adamlar da ötən əsrlərdə yaşayıb. Bəs bu, ixtira deyil, nədir? Yaxşı, qoy, dünyanın başqa ölkələrində də bu, bir nəfərin ağlına gəlsin də. Görürsünüz, biz nə qədər ağıllı, yenilikçiyik? Həm də yeni əsrimizdə...

Nə gözəl yağış yağır... Yayın isti günlərində küçələrdə başına ələnən su damlaları, yerdən ayaqlarına təmas edən qəfləti su sıçramaları ilə sərinləyən şəhər sakinləri hər dəfə bunu hiss edəndə "nə gözəl yağış yağır",- deyirlər. Və sevinirlər ki, məhz bu şəhərdə yaşayırlar. Həqiqətən də bu şəhərdə yaşamaq necə də gözəldir... Yayı bir başqa gözəl, qışı bir başqa gözəl olan şəhər, sən həmişə gözəlsən. Qədirbilən sakinlərinlə, ixtiraçı, yenilikçi usta-sənətkarlarınla sən hər fəsildə gözəlsən...

***Mətanət Məmmədova***



***Yeniyetmələrin psixologiyası, texnologiya və gənclərin inkişafı sahəsində dünyaca tanınmış kanadalı inkişaf və kəmiyyət psixoloqu, Kaliforniya Universiteti İrvin (UCI) Sosial Ekologiya Məktəbində professor və tədqiqat direktoru olaraq fəaliyyət göstərən Kendis Odcers 25 ildir yeniyetmələrin zehni sağlamlığını araşdırır. O, smartfonlar ətrafında mövcud müzakirələrin yeniyetmələrin üzləşdiyi ən böyük problemlərin bəzilərini gizlətməsindən qorxur.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı " istiqaməti çərçivəsində hazırlanıb.*

# Uşaqlar, texnologiya və təhlükə: ekspertlərin fikri toqquşur

Kendis Odcers hesab edir ki, uşaqlar və yeniyetmələr üçün boş vaxtlarını onlayn keçirməyin daha təhlükəsiz olmasının bircə yolu var, o yol da bütün yetişkin insanları internetdən qovmaqdır. O deyir ki, kişilər azyaşlıların seks istismarının ən böyük günahkarlarıdır və dezinformasiya yayma ehtimalı onlarda daha yüksəkdir.

Sosial psixoloq və "Narahat Nəsil" kitabının bestseller müəllifi Conatan Haidt ötən həftə BBC Radio 4-ə verdiyi açıqlamada uşaqlarını sosial mediadan uzaq tutmağın vacib olduğunu, 16 yaşlı qızının hələ də sosial şəbəkələrdə qeydiyyatdan keçmədiyini bildirib və deyib ki, qızı da bunu istəmir. Sosioloq əlavə edib: "O, sosial şəbəkələrin digər qızlara nə etdiyini görür".

Lakin bunun əksinə olaraq, 25 ildir yeniyetmələrin əqli sağlamlığını araşdıran inkişaf psixologiyası professoru Odgers fərqli bir yanaşma tətbiq edir. O, hər iki uşağınına 11 yaşı tamam olanda smartfonlar verdiyini və qızının eyni yaşda Snapchat-dan istifadə etməyə başlamasına icazə verdiyini deyir.

Psixoloq deyir ki, gənclər arasında artan sağlamlıq problemlərinin əsas izahı kimi sosial şəbəkələri günahlandıran insanlara etiraz edir. O deyir ki valideynlər əslində daha təhlükəli vəziyyətləri bilmədikləri üçün onlayn təhlükələri ən böyük hesab edir. Psixoloq deyir ki telefonsuz məktəb tətbiqini bütün ölkələrdə qəbul edirən müasir təhsil sistemi onu məyus edir: "Mənə getdikcə daha aydın olur ki, qadağalar vəziyyəti daha da pisləşdirəcək, daha yaxşıya doğru dəyişdirməyəcək".

Odgers və Haidt illərdir eyni tədqiqatları oxuyan, lakin tamamilə fərqli nəticələrə gələn elm adamlarıdır. Haidtin kitabı iki il əvvəl nəşr olunduğu gündən bəri 44 dildə 2 milyondan çox nüsxə satılıb. Kitabın alt başlığı olan "uşaqlığın yenidən qurulması" nəzəriyyəsi valideynləri məktəblərdə smartfonların qadağan edilməsi üçün kampaniya aparmağa ruhlandırıb və sosial media istifadəsinə yaş məhdudiyyətləri ilə bağlı siyasi müzakirələrə səbəb olub.

Təsirli akademik ixtisaslarına baxmayaraq, Odgers hələ də Haidt qədər beynəlxalq səviyyədə təsir gücünə malik deyil. Hesab edir ki, bu yaxınlarda nəşr olunan "Uşaqlar və texnologiya haqqında nəyi səhv başa düşürük" adlı əsəri bunu dəyişdirməyə kömək edə bilər. O, Haidtin uğuruna işarə edərək deyir: "Qorxulu hekayələr satılır, onlar həmişə satılıb və qorxulu hekayələri valideynlərə satmaq həqiqətən asandır. Biz narahat insanlarıq."

2008-ci ildən bəri Odgers 10-14 yaşlı uşaqlarla işləyir, hər gün telefonlarını yoxlayaraq onların öz vaxtlarını necə keçirdiklərini və nə hiss etdiklərini təhlil edir. Təsirli akademik keyfiyyətlərinə baxmayaraq, Odgers hələ də Haidt qədər beynəlxalq təsirə malik deyil.

"Sosial medianın günahkar kimi müəyyən edilməsi yanlışdır" deyən psixoloq Odgers internetdə zorakılığa məruz qalan uşaqların əksəriyyətinin oflayn rejimdə də zorakılığa məruz qaldığını göstərən araşdırmaları übut kimi göstərir. "Kiber-zorakılığın olmadığını demirəm, amma yalnız buna diqqət yetirsək, mənzərənin böyük bir hissəsini gözdən qaçırarıq. Uşaqların zərər görmə ehtimalı ən yüksək olan yer onların evlərində, məktəblərdə etibar etdikləri insanlardır."

Psixoloq insanlar tərəfindən texnologiya şirkətlərinə qarşı çox humanist yumşaq davranmaqda ittiham olunsa da, Odgers platformaların daha sərt tənzimləməyə ehtiyacı olduğunu çox açıq şəkildə bildirir. "Onlayn seks istismarına, zorakılığa yol verən texnologiya şirkətlərini məsuliyyətə cəlb etməliyik. Bu, qadınlar və qızlar üçün dəhşətlidir, çünki qurbanların 80%-dən 90%-ə qədəri onlardır. İndi gəlin baxaq, görək ki, texnologiya şirkətlərinin sahibləri və inkişaf etdiriciləri də 90%-i kişilərdir, ona görə də qadın və qızların onlayn qorunması baxımından belə bir fundamental problemimiz var."

***Lalə Mehralı***

# Çimərlik geyiminə görə qınaq: şəxsi seçimə niyə cəmiyyət qərar verməlidir?



***Yay mövsümünün gəlişi ilə çimərliklər insanlarla dolur. Dənizə istirahətə gedənlər rahat hərəkət etmək və üzmək üçün çimərlik geyimlərinə üstünlük verirlər. Lakin bir çox hallarda xüsusilə qadınlar çimərlik geyimində olduqları üçün tənqid, irad, istehzalı baxışlar, hətta təhqiramiz sözlərlə üzləşirlər. Sosial şəbəkələrdə yayılan videoların şərhləri də göstərir ki, bu mövzu cəmiyyətdə hələ də ciddi fikir ayrılığı yaradır.***

Maraqlıdır ki, insanlar çimərlik üçün nəzərdə tutulmuş geyimə niyə gündəlik küçə geyimi kimi yanaşırlar? Niyə bəzi şəxslər başqasının geyimini müzakirə etməyi özlərinə haqq hesab edirlər? Bu münasibətin kökündə hansı sosial və psixoloji amillər dayanır?

SİA mövzu ilə bağlı araşdırma edib.

Bu problem yalnız Azərbaycana aid deyil. Dünyanın müxtəlif ölkələrində aparılan araşdırmalar göstərir ki, çimərliklər insanların bir-birini ən çox xarici görünüşünə və geyiminə görə qiymətləndirdiyi məkanlardan biridir. Turizm sahəsində aparılmış elmi tədqiqatlar göstərir ki, insanların fərqli çimərlik geyimi seçməsi digər insanların onlara münasibətinə, ünsiyyət qurmaq istəyinə və hətta həmin məkana münasibətinə belə təsir edə bilir. Araşdırmalar bunu "sosial identiklik" və "oxşarlıq meyli" ilə izah edir: insanlar özlərinə bənzəyən şəxsləri daha rahat qəbul edir, fərqli görünənlər isə daha çox diqqət və bəzən qınaq ilə qarşılaşırlar. (ScienceDirect)

Avropa ölkələrinin böyük hissəsində və ABŞ-da çimərlik geyimi yalnız çimərlik və hovuz üçün funksional geyim hesab olunur. Orada insanların geyiminə müdaxilə etmək və ya buna görə onları alçaltmaq sosial baxımdan qəbul edilən davranış sayılmır. Bununla belə, dünyanın bəzi bölgələrində dini, mədəni və ənənəvi dəyərlər səbəbindən daha qapalı çimərlik geyimlərinə üstünlük verilir. Bir sıra ölkələrdə isə burkini, bikini və digər çimərlik geyimləri ətrafında illərdir ictimai və hüquqi müzakirələr davam edir. (ScienceDirect)

Azərbaycanda isə vəziyyət daha mürəkkəbdir. Bir tərəfdən ölkədə dəniz turizmi inkişaf edir, müasir çimərlik kompleksləri fəaliyyət göstərir və insanlar müxtəlif tip çimərlik geyimlərindən istifadə edirlər. Digər tərəfdən isə cəmiyyətin müəyyən hissəsində daha konservativ yanaşma qalmaqdadır. Xüsusilə sosial şəbəkələrdə və bəzi ictimai məkanlarda qadınların geyimi daha çox müzakirə olunur. Geyimə yönələn iradların əksəriyyəti də məhz qadınlara ünvanlanır. Bunun kökündə uzun illər formalaşmış gender stereotipləri, ailə və namus anlayışının geyimlə əlaqələndirilməsi, eləcə də insanların başqasının şəxsi seçiminə müdaxilə etməsini normal hesab etməsi dayanır. Azərbaycanda geyim normalarının tarixi və mədəni dəyişimi ilə bağlı akademik araşdırmalar da göstərir ki, geyim məsələsi ölkədə sosial dəyişikliklər və mədəni dəyərlərlə sıx bağlı olaraq formalaşıb. (Taylor & Francis Online)



Bununla yanaşı, son illər xüsusilə Bakı və turizm zonalarında çimərlik geyiminə münasibətin daha liberal olduğu müşahidə edilir. Yerli sakinlər və turistlərin təcrübələri göstərir ki, ödənişli çimərliklərdə müxtəlif çimərlik geyimləri adi qarşılanır. Bununla belə, bəzi ictimai çimərliklərdə insanların baxışları və qeyri-etik şərhləri ilə qarşılaşanlar da olur. (Reddit)

Psixoloqlar hesab edirlər ki, başqasının geyimini davamlı müzakirə etmək və ya ona görə insanı alçaltmaq əslində nə əxlaqın, nə də mədəniyyətin göstəricisidir. Bu, daha çox fərqli seçimlərə qarşı dözümsüzlük, stereotiplər və sosial nəzarət meylindən qaynaqlanır. Hüquqşünaslar isə bildirirlər ki, qanunvericiliklə qadağan edilməyən geyim seçiminə görə insanın təhqir olunması, alçaldılması və ya təqib edilməsi hüquqi məsuliyyət də yarada bilər.

***Ayşən Vəli***

ARAŞDIRMA

SON SƏHİFƏ
SƏS
17 iyul
2026-cı il

# Oxumaq dövrü bitdimi?

## Rəqəmsal mühit müasir insanlara necə təsir edir?

***...Əsrlər boyu insan düşüncəsini formalaşdıran oxu dövrü tədricən azalır. Tədqiqatçılar xəbərdarlıq edirlər ki, rəqəmsal mühit təkcə insanların vərdişlərini deyil, həm də məlumatı qavramağımızı dəyişdirir. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə The Atlantic yazır.***

...İsgəndəriyyə Kitabxanası bir vaxtlar insan biliyinin simvolu hesab olunurdu. Onun yox olması qədim dünyanın ən böyük mədəni itkilərindən biri idi. Bu gün təhlükə fərqli görünür: kitablar fiziki olaraq yoxa çıxmır, əksinə insanlar onlara getdikcə daha az daxil olurlar. Tədqiqatlara görə, insanlar əvvəlkindən xeyli az oxuyurlar. Son onilliklərdə müntəzəm olaraq zövq almaq üçün oxuyan insanların nisbəti nəzərəçarpacaq dərəcədə azalıb. Bu arada, onlayn qısa mətnlərin sayı eksponensial olaraq artıb: istifadəçilər hər gün mesajlara, yazılara və şərhlərə məruz qalırlar, lakin mürəkkəb əsərlərə getdikcə daha az qapılırlar.



Alimlər bunu "savadlılıqdan sonrakı dövr"ə keçid adlandırırlar. Söhbət oxu bacarıqlarının yox olmasından deyil, uzun müddət diqqəti cəmləşdirmək, böyük mətnləri təhlil etmək və mürəkkəb nəticələr çıxarmaq qabiliyyətinin itirilməsindən gedir. Sosial media və qısa videolar məlumatları sürətlə nəzərdən keçirmək vərdişini yaradır və dərin öyrənməni daha da çətinləşdirir. Texnologiyanın uşaqlara təsiri xüsusilə narahatlıq doğurur.

Müəllimlər kitablara marağın azaldığını və şagirdlərin daha uzun mətnlərlə işləmək qabiliyyətinin azaldığını qeyd edirlər. Romanlar getdikcə qısa parçalarla əvəz olunur və rəqəmsal cihazlar öyrənmənin mərkəzinə çevrilir. Digər bir çətinlik süni intellektdir. Mütəxəssislər hesab edirlər ki, süni intellektdən yazı üçün geniş istifadə müstəqil düşünmə bacarıqlarını zəiflədə bilər, çünki yazı prosesi insanlara fikir formalaşdırmağa və arqumentlər hazırlamağa kömək edir.

Lakin kitablar yox olmayıb. Milyonlarla insan hələ də oxuyur, yeni kitab mağazaları açılır və müəyyən formatların populyarlığı artır. Lakin oxumaq kütləvi vərdişdən kiçik bir qrup insan üçün fəaliyyətə çevrilir. Gələcəyin əsas sualı kitabların yaşayıb-yaratmayacağı deyil, bəşəriyyətin onlara daxil olmaq istəyini qoruyub saxlayıb-saxlamayacağıdır.

*Əli Babayev*

## B İ L D İ R İ Ş

**Hörmətli Səhmdar!**

«BETON MƏMULATLARI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ nəzərinizə çatdırır ki, "29" avqust 2026-cı il tarixində, saat 15:00-da Cəmiyyətin hüquqi və faktiki ünvanı olan Bakı şəhəri, Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti 156E ünvanında yerləşən inzibati binasında Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağı keçiriləcəkdir. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilməklə, Yığıncaqda həmin məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

- «Beton Məmulatları» Açıq Səhmdar Cəmiyyətinin 2025-ci il üçün illik maliyyə təsərrüfatı fəaliyyətinin müzakirəsi (2025-ci il üzrə maliyyə hesabatının təsdiq edilməsi) barədə;
- «Beton Məmulatları» Açıq Səhmdar Cəmiyyətinin 2025-ci maliyyə təsərrüfatı ilinin yekunlarına görə dividendlərin səhmdarlara ödənilməsi barədə;
- Yığıncağın gündəliyində duran digər cari məsələlərin müzakirə edilməsi barədə.

Səhmdarlardan və ya onları Ümumi Yığıncaqda səlahiyyətli nümayəndə kimi təmsil edən şəxslərdən Yığıncaqda iştirak etmələri üçün aşağıdakı sənədlərin təqdim edilməsi xahiş olunur.

- Səhmdarın özü iştirak etdikdə onun şəxsiyyətini təsdiq edən sənədin əsli;
- Səhmdar birbaşa özü deyil, nümayəndəsi vasitəsilə təmsil olunduqda təmsil edənin şəxsiyyətini təsdiq edən sənəd və ona səhmdar tərəfindən Ümumi Yığıncaqda təmsiletmə səlahiyyəti ilə bağlı verilmiş notarial qaydada təsdiq edilmiş etibarnamə;
- Səhmdarın adına olan cari bank hesabı məlumatlarına dair sənəd (cari hesab barədə bank rekvizitlərinin əks olunduğu sənəd) – hesablanmış dividend məbləğinin hesaba köçürülməsi üçün.

QEYD 1: Səhmdarların Ümumi Yığıncağına gələn səhmdar və ya onun etibarnamə üzrə səlahiyyətli nümayəndəsi müvafiq olaraq şəxsiyyət vəsiqəsinin və nümayəndəyə verilmiş etibarnamənin əslini təqdim etməlidir.

QEYD 2: Bankda adına hesab olmayan səhmdar ilk öncə istədiyi bankda öz adına cari hesab açmalı və bank tərəfindən ona verilmiş bank rekvizitlərinə dair sənədi Cəmiyyətə təqdim etməlidir.

**Hörmətlə,**
«BETON MƏMULATLARI» ASC-nin

İdarə Heyətinin sədri
**Qurbanov Xıdır Namaz oğlu**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# İctimai nəqliyyatda davranış mədəniyyəti: problem təkcə avtobus deyil...

Hər səhər minlərlə insan işə, məktəbə və universitetə getmək üçün ictimai nəqliyyatdan istifadə edir. Avtobuslar, metro qatarları və digər nəqliyyat vasitələri şəhər həyatının ayrılmaz hissəsinə çevrilib. Son illər yeni avtobuslar alınır, marşrut şəbəkəsi yenilənir, ödəniş sistemi müasirləşdirilir. Bütün bunlar vacib addımlardır. Ancaq rahat və təhlükəsiz ictimai nəqliyyat təkcə yeni avtobuslardan ibarət deyil. Çox vaxt problemlərin əsas səbəbi nəqliyyat vasitəsinin özü yox, ondan istifadə edən insanların davranışıdır.

Demək olar ki, hər gün eyni mənzərə ilə rastlaşırıq. Avtobus dayanacaqda tam dayanmamış sərnişinlər qapıya doğru sıxlaşır. Düşmək istəyənlərə yol verilmir, hər kəs birinci minməyə çalışır. Nəticədə həm vaxt itirilir, həm də narazılıq yaranır.

Başqa bir problem yüksək səslə telefonla danışmaqdır. İctimai nəqliyyat onlarla insanın istifadə etdiyi məkandır. Buna baxmayaraq, bəziləri şəxsi söhbətlərini hamının eşidəcəyi səslə aparır. Digərləri telefonda video izləyir və ya musiqiyə qulaq asır, amma qulaqlıqdan istifadə etməyi lazım bilmir. Belə hallarda bir nəfərin rahatlığı onlarla insanın narahatlığına çevrilir. Təəssüf doğuran hallardan biri də yaşlılara, hamilə qadınlara, azyaşlı uşağı olan analara və sağlamlıq imkanları məhdud şəxslərə yer verilməməsidir. Halbuki bu, qanunlardan əvvəl vicdan məsələsidir. Bir neçə dəqiqə ayaq üstə qalmaq sağlam bir insan üçün ciddi problem yaratmaz. Amma həmin yer ehtiyacı olan biri üçün böyük rahatlıq deməkdir.

İctimai nəqliyyatda təmizliyə münasibət də düşündürücüdür. Bəzən sərnişinlər istifadə etdikləri su şüşəsini, kağızı və ya digər tullantıları avtobusda qoyub düşürlər. Halbuki həmin nəqliyyat vasitəsi yalnız bir nəfərə deyil, hər gün minlərlə insana xidmət edir. İctimai əmlaka münasibət cəmiyyətin mədəniyyət səviyyəsini göstərən əsas meyarlardan biridir. Problemin başqa tərəfi isə sürücülərlə sərnişinlər arasındakı münasibətdir. Kobud danışıq, səbirsizlik, qarşılıqlı hörmətsizlik bəzən adi bir səfəri gərginliyə çevirir. Halbuki bir təbəssüm, nəzakətli müraciət və qarşılıqlı anlayış bu gərginliyin qarşısını ala bilər.

İctimai nəqliyyat şəhərin kiçik modelidir. Orada müxtəlif yaşda, fərqli peşədə və fərqli düşüncəyə malik insanlar bir araya gəlirlər. Məhz buna görə də qarşılıqlı hörmət və etik davranış xüsusi əhəmiyyət daşıyır. Bu gün biz çox vaxt avtobusların sayından, marşrutlardan və ya sıxlıqdan şikayət edirik. Bunlar həqiqətən də həllini gözləyən məsələlərdir. Ancaq ən müasir və ən rahat avtobus belə, sərnişinlər bir-birinə hörmət etmirsə, tam rahatlıq yarada bilməz.

Mədəniyyət yalnız teatrda, muzeydə və ya kitabxanada özünü göstərmir. O, avtobusa minərkən növbəyə riayət etməkdə, düşən sərnişinə yol verməkdə, yaşlı insana yer təklif etməkdə, ətrafdakıları narahat etməməkdə və ictimai əmlaka sahib çıxmaqda da özünü göstərir. Şəhərləri müasir edən təkcə yeni yollar və yeni avtobuslar deyil. Şəhəri müasir edən həmin avtobuslarda bir-birinə hörmətlə yanaşan insanlardır. Çünki ictimai nəqliyyatın keyfiyyətini müəyyən edən təkcə onun mühərriki yox, həm də içində formalaşan davranış mədəniyyətidir.

*Günel Fərzəliyeva*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**